Elmi Xəbərlər Jurnalı *Nömrə 3, 2024 165-168*

DOI:10.30546/gdu.3.2024

SƏNƏTŞÜNASLIQ VƏ MEMARLIQ

UOT:781.

MƏKTƏB XORLARINDA XOR-VOKAL VƏRDİŞLƏRİ ÜZƏRİNDƏ İŞİN ƏHƏMİYYƏTİ VƏ YOLLARI

Nəbiyeva Leyla Məzahir qızı
Gəncə Dövlət Universiteti
nabiyeva. leyla@inbox.ru

Xülasə: *Məqalədə məktəb xorlarında vokal-xor vərdişləri üzrə işin mühüm əhəmiyyəti və metodları araşdırılmışdır. Məktəb xorlarında şagirdlərə xor əsərlərini düzgün öyrədilməsi, onların vokal-xor vərdişlərinin inkişaf üçün etdirilməsi ən vacib məsələlərdir.*

Açar sözlər: vərdişlər, vokal-xor vərdişləri, nəfəsalma, səs əmələgəlmə, diksiya, artikulyasiya, emosional ifa.

Ключевые слова: навыки, вокально-хоровые навыки, певческое дыхание, звукообразование, дикция, артикуляция, выразительность исполнения

Key words: skills, vocal-choral skills, singing breath, sound formation, diction, articulation, expressive performance

Məktəb xor kollektivinin təşkilində müxtəlif musiqi qabiliyyətlərinə və səs imkanlarına, ümumi inkişafın və tərbiyənin müxtəlif səviyyələrinə, müxtəlif maraqlara və zövqlərə malik olan şagirdləri toplayıb bir kollektivdə ümumi işə cəlb etmək məktəb xor kollektivinin təşkili prosesində ən ağır və çətin məsələdir. Məktəbliləri bu fəaliyyətə cəlb etmək və maraqlandırmaq üçün xorun rəhbəri çox böyük səylər göstərməlidir ki, onun ilk addımları uğurlu olsun.

Tədqiqatçı-alim Sevda Qurbanəliyeva "Şəxsiyyət və musiqi" adlı kitabında haqlı olaraq geyd edir: *"Xorla oxumaq məktəblilərin musiqi tərbiyəsində ən fəal musiqi fəaliyyəti növüdür. Mahnı oxumaq şagirdin hərtərəfli inkişafına, düzgün, savadlı danışığının formalaşmasına səbəb olur. İl boyu məktəblilərlə aparılan vokal məşğələlərin və notla oxuma materialının şüurlu mənimsənilməsinin böyük əhəmiyyəti vardir"* [2, s. 44]

Müəllimin əsas vəzifələrindən biri rəhbərlik etdiyi səs qruplarını vokal nöqteyi – nəzərdən düzgün təşkil etməsidir. Musiqi fənninin əsas və vacib mərhələlərindən biri "xorla mahnı oxumada vokal vərdişləri"dir. Qeyd etmək lazımdır ki, xorla oxuma insanları kollektivdə birləşdirir və yaxın ünsiyyətdə olmağa kömək edir. Gənc və uşaqların xorla oxuma tərbiyəsi ölkənin musiqi mədəniyyətinin inkişafında, əhalinin bədii zövq və tələbatlarının formalaşmasında əsas vasitə kimi çıxış edir.

Tədqiqatçı-alim Nailə Mirzəyevə "Xorşünaslıq" adlı kitabında haqlı olaraq deyd edir: "*Dirijor – xormeysterin əsas vəzifələrindən biri rəhbərlik etdiyi kollektivin tərkibini, yəni səs qruplarını vokal nöqteyi – nəzərdən düzgün təşkil etməsidir. Xor kollektivinin tərkibində olan ifaçıların hər biri müxtəlif səslərə, fərdi ifa üslubuna, oxuma adətlərinə, nəfəsdən istifadə etmələrinə, sözü tələffüz etmələrinə malik olurlar. Xor rəhbəri kollektivinin vokal-xor vərdişlərinin tərbiyəsini vahid prinsip əsasında qurmalıdır"* [3, s. 111].

Vokal vərdişlərinə yiyələnmə prosesi məktəb xor kollektivlərində səsyaranma vərdişlərinin, elementar vokal bacarıqlarının mənimsənilməsindən başlamalıdır. Lap əvvəldən xormeyster şagirdlərin diqqətini oxu səsinin formalaşması priyomlarına yönəltməlidir. Sadə məşğələlər materialında xormeyster tədricən uşaqlara düzgün nəfəs alıb-buraxmağı öyrədir, nəfəs əzələlərini möhkəmlədir və nəfəslə bağlı digər məsələlərə diqqət yetirir (çiyinlərin qalxmaması, nəfəsin dərinliyin və s.). Məlumdur ki, uşaqlar nəfəsi üzdən alır – bu onların fizioloji xüsusiyyətləri ilə bağlıdır. Belə ki, onların diafraqması inkişaf etməmiş, nəfəs yolu

DOI:10.30546/gdu.3.2024

dar, qabırğa arası və sinə əzələləri zəifdir. Uşaq diksiyası artikulyasiya cəhətdən passivdir. Buna görə xormeyster vokal diksiyasına xüsusi diqqət yetirməlidir. O, uşaqlarda ağız forması, dilin vəziyyəti, alt çənənin hərəkətini oxu zamanı müşahidə edərək, korrektə edir.

Tədqiqatçı-alim Yusif Həbibov "Xorşünaslıq" adlı dərsliyində haqlı olaraq qeyd edir: "*Diksiya və artikulyasiya üzərində aparılan iş prosesində müğənnilərin hər bir sözün, cümlənin və bütövlükdə mətnin məzmununu, mənasını dərindən dərk etməsi, hər bir söz və cümələnin ümumi mətndəki rolunu düzgün müəyyən etməsi, söz və cümlənin bədii-emosional mənasını, onların ifadə vasitələrini hərtərəfli dərk etmələri böyük rol oynayır"* [1, s. 88].

Xormeysterin əsas vəzifələrindən biri də müxtəlif növ səs həmlələrinin formalaşdırılmasıdır: sərt həmlə (səs tellərinin sıx birləşməsi), yumşaq həmlə (daha az sıxlıqda birləşmə), nəfəsyanı həmlə (səs tellərinin az birləşməsi). Oxuda, xüsusilə də şagirdlərdə daha çox yumşaq həmlə istifadə olunur. Bu həmlə növü səs tembrini daha gözəlləşdirir və axıcı səslənməyə nail olmağa kömək edir. Konkret bir ifaçılıq priyomunu tətbiq etmək lazım olduğu halda sərt həmlədən də istifadə oluna bilər, lakin burada səsin forsirovkasından qaçınmaq lazımdır ki, qışqırtılı səslənmə olmasın.

Vokal-xor ifaçılığında tələffüz məsələləri böyük məna kəsb edərək vokal səsin formalaşmasında həlledici rol oynayır. Hər bir müğənni və xormeyster bilməlidir ki, ifanın yüksək keyfiyyəti həzin axıcı və uzanan səsin keyfiyyəti ilə müəyyən edilir [1, s. 86].

Vokal-xor vərdişlərinin mənimsənilməsi prosesində səslənmənin bütün elementlərinin vahidliyi, birliyinə, yəni xorun kökünə nail olma böyük əhəmiyyət kəsb edir. Xorun səslənməsinin intonasiya cəhətdən hamarlılığına, təmiz oxuya nail olmaq üçün uşaqlar səsin yüksəkliyini dəqiqliklə icra etməlidir. Təmiz intonasiya vərdişlərini şagirdlərdə xorla oxuma prosesinin lap əvvəlindən formalaşdırmaq gərəkdir. Sonralar inkişaf edərək və mükəmməlləşərək onlar müşayiətsiz *a capella* oxu və yaxud polifonik çox-səsliliyin ifası zamanı kömək edə bilər.

Ən vacib xor vərdişlərindən biri həm bədii, həm də texniki ansambla nail olmaqdır. Metodist-pedaqoqlar qeyd edirlər ki, xor ansamblının əsasında ifanı təşkil edən bütün komponentlərin vahidliyi durur. Bu əvvəla o deməkdir ki, bütün şagirdlər eyni tərzdə və eynizamanda temp, ritm, dinamika və səslənmə xarakteri cəhətdən əsərin ifasına dair tələbləri yerinə yetirməlidir. İkincisi, bütün şagirdlər təxmini eyni priyomlardan istifadə edərək eyni ifa üslubuna nail olmalıdır.

Xor asamblı dedikdə temp, metro-ritm və dinamika cəhətdən vahid hamar ifa, ayrı-ayrı hecaların eynizamanda tələffüzü nəzərdə tutulur. Bütün bu vacib vərdişlərə səmərə və keyfiyyət ilə yiyələnmək üçün oxuyanlar dirijorluq jestlərinin mənasını anlamalıdır və onları daima izləməlidir. Cünki bunlar tez və keyfiyyətli şəkildə əsəri öyrənməyə kömək edir. Xor rəhbərinin dirijorluq göstərişləri dəqiq və eyni vaxta ifaya girişi və ifanın kəsilməsini, eyni vaxtda nəfəsin alınmasını, səsaparıcılığın eyni tərzini, kökün, tempdə, ritmdə və dinamikada dəyişikliklərini təmin edir. Başqa sözlə desək, xor səslənməsini təşkil edən dirijorun əllərinin dəqiq və ifadəli hərəkətləri xor iştirakçılarının vokal-xor vərdişlərini formalaşdıran və onlara ifa olunan əsərin bədii məzmununu açıqlamağa kömək edən əsas alət kimi çıxış edir.

Qeyd edək ki, xor məşğələlərinin ən vacib məqamlarından biri də təmrinlərin (oxu çalışmaların) yerinə yetirilməsidir. Çünki bunlar şagirdlərin həm səs tellərini "isindirir", həm də onlarda vokal-xor vərdişlərini formalaşdırır. Bunlar səsyaranma, nəfəs, diksiya, atrikulyasiya və s. vərdişlərinin əldə olunmasına yönəlmiş özünəməxsus bir müntəzəm səs məşqləridir.

Təmrinlər melodik və ritmik cəhətdən sadə və yadda qalan olmalıdır, bunlarda böyük intervallar olmamalı və onların melodiyası diapazonun böyük hissəsini əhatə etməməlidir. Oxu prosesi zamanı şən və yüksək əhval-ruhiyyə abu- havası yaratmaq üçün təmrinlər adatən

DOI:10.30546/gdu.3.2024

majorda verilir. Təmrinlər əvvəl sakit, asta tempdə ifa olunur, sonralar isə temp, metodik məqsədlərdən asılı olaraq, sürətləndirilə bilər.

Dərsin əvvəlində verilən təmrinlər diapazonun orta hissəsində taraz, hamar səslə, orta qüvvə ilə aparılmalıdır. Daim güclü oxuma səsin ifadəsinə gətirib çıxarır ki, bu da səs telləri üçün xüsusilə təhlükəlidir. Düzdür, həddən artıq sakit oxuma da tövsiyyə edilməsə də, onun səs üçün ziyanı bağırtılı oxumadan daha az olur, oğlanlarda mutasiya dövründə isə sakit oxu tərzi zəruridir.

Təmrinlərin ifasını daha təbii və gözəl primar səslərdən başlamaq lazımdır. Adətən bunlar səs diapazonunun orta hissəsində olan səslərdir. Təmrinlərdə keçici tonlardan qaçınmaq məsləhətdir, yəni oğlanlarda sinə registri, qızlarda isə - mərkəzdəki səslər. Tədricən məşğələlər zamanı səslərin həcmi bütün diapazonu əhatə edərək böyüyür. Qıraq ən aşağı və ən zil səslərin formalaşdırılması və inkişafı yalnız yaxşı səslənən ortanın əsasında aparıla bilər, buna görə də ilk növbədə diapazonun orta hissəsi möhkəmləndirilməlidir. İlk təmrinləri şagirdlərin asan qavraya bildikləri rahat sait səslərdən aparmaq lazımdır. Əgər şagird sıxıılmış boğaz səsi ilə oxuyur, "I" saiti bu çatışmamazlığı bir qədər də artırır lakin "a, o, u" saitləri onu aradan qaldırmağa köməklik göstərə bilər. Burunda səslənməni "o" və xüsusilə də "u" saiti ilə oxunan təmrinlər aradan qaldırar.

Təmrinləri əvvəl təkcə saitlərlə, sonradan isə samitləri əlavə edərək oxumaq olar. Samitlər artikulyasiya aparatının işini əhəmiyyətli dərəcədə aktivləşdirir. Buna görə də şagirdlər cansız, solğun oxuyanda təmrinləri elə əvvəlcədən samit və saitlərin birləşməsilə oxumaq lazımdır (ma, lyo və s.). Təmrinlər öyrənilən repertuarla bağlı və yaxud hər hansısa bir əsərin parçası və ya xalq mahnısı da ola bilər.

Təmrinlər vokalizasiya növlərinə görə də fərqlənir: *legato və staccato*.

Legato-da oxunan təmrinlər əsas vokal-texniki səsyaranma vərdişini –kantilenanın formalaşması və inkişafı üçün verilir. Kantilen oxu tərzi uzun, taraz, düzgün təşkil edilmiş nəfəsburaxma prosesi ilə sıx əlaqədardır. Ona görə, *legato*-da tədricən uzanan frazalar ilə oxunan təmrinlər nəfəsi yaxçı inkişaf etdirir.

Staccato-da oxunan təmrinlər səs tellərini aktivləşdirir və dəqiq *ataka*-nın mənimsənilməsinə kömək edir. *Staccato* oxu (qırıq-qırıq oxu), yəni hər bir səsi bir-birindən ayıraraq oxu deməkdir. Bu zaman diafraqmanın fəal hərəkətləri və nəfəsin köməyi ilə *staccato* səslənməni yaratmaq olar. Frazanın *staccato*-da oxunması sanki birnəfəsə alınır. Şagirdlərin diqqəti nəfəs əzələlərinin (əsasən diafraqmanın) və səs tellərinin birgə fəaliyyətində cəmləşdirilir. Məşğələni əvvəl *staccato*- da, sonra isə dərhal *legato*-da oxumaq faydalıdır. *Staccato*-nun istifadəsi nəfəsi fəallaşdırır, dayaq hissinin tapılmasına kömək edir. Cəld templər səslənmənin yüngüllüyünə, asta tempdə isə səsin dolğunluğuna xidmət edir, buna görə templərin növbələnməsi məsləhət görülür.

Non legato ştrixində oxuma nəfəsin düzgün alınmasına səbəb olur. Oxu nəfəsi adi nitq nəfəsindən fərqlənir. Ən başlıcası, şagirdlərə helə birinci dərslərdən izah etmək lazımdır ki, təkcə böyük həcmdə hava almaqla iş bitmir, ən əsası odur ki, onu yavaş-yavaş, qənaətlə istifadə etmək lazımdır. Müəyyən xüsusi məşqlərin köməyi ilə nəfəs buraxmanı qənaətlə həyata keçirməyi öyrətmək olar. Oxu nəfəsi səssiz nəfəsalmanı tələb edir və nəfəsi burunla almaq məsləhət

görülür. Şagirdlərə xas olan tipik çatışmamazlıq – nəfəsi üzdən almadır. Bu da nəfəsalma anında çiyinlərin qaldırılmasından irəli gəlir.

Təmrinlər zamanı maksimal olaraq səsin azad və "uçuş" xarakterli olmasına nail olmaq lazımdır.

Beləliklə, məktəb xorlarında xor dərslərində məqsədyönlü iş nəticəsində şagirdlərin səs diapazonu genişlənir və möhkəmlənir, həmçinin burada əsas vokal-texniki vərdişlər-nəfəs,

DOI:10.30546/gdu.3.2024

dinamika, frazirovka, artikulyasiya və diksiya, intonasiya əldə olunur. Məşğələ və təmrinlər musiqi materialının vacib növüdür ki, burada bütün bu vərdişlər formalaşdırılır.

Ədəbiyyat

1. Həbibov Y. "Xorşünaslıq". Dərs vəsaiti. Bakı, ADPU, 1998, 150 s.
2. Qurbanəliyeva S. Şəxsiyyət və musiqi. Bakı, Adiloğlu, 2010, 160 s.
3. Mirzəyeva N. Xorşünaslıq. Dərs vəsaiti. Bakı, ADPU, 2007, 124 s.

Saytoqrafiya

4. Azərbaycan Milli Kitabxanası. URL: https://www.anl.az
5. "*Musiqi Dünyası*" Beynəlxalq Elmi *Musiqi Jurnalı. URL:* http://www.musigi-dunya.az

ВОКАЛЬНО- ХОРОВЫЕ НАВЫКИ В ШКОЛЬНЫХ ХОРАХ ИХ ВАЖНОСТЬ И СПОСОБЫ РАБОТЫ НАД НИМИ

Набиева Лейла Мазахир кызы

Резюме

В статье рассматривается значение и методы работы над вокально-хоровыми навыкамим в школьных хорах. Важнейшими вопросами в школьных хорах является правильное обучение учащихся хоровому произведению, развитие их вокальных и хоровых способностей.

VOCAL AND CHORAL SKILLS IN SCHOOL CHOIRS IMPORTANCE AND WAYS TO WORK ON

Nabiyeva Leyla Mazahir gizi

Resume

The article discusses the importance and methods of working on vocal and choral skills in school choirs. The most important issues in school choirs are the correct training of students in choral work, the development of their vocal and choral abilities.

Rəyçi: Əli Əliyev
Musiqi fənləri kafedrasının 12 iyun 2024-cü il tarixli iclasın 20 saylı protokolu
Daxil olma tarixi 26 sentyabr 2024-cü il